# ƏCNƏBİLƏRƏ AZƏRBAYCAN DİLİNİN TƏDRİSİ

## *1. NİTQ VƏRDİŞLƏRİ HAQQINDA ÜMUMİ MƏLUMAT*

*ARAŞDIRMA*

*Elza İSMAYILOVA*
*magistr*

Əcnəbilərə Azərbaycan dilinin tədrisində qarşıda duran vacib məsələlərdən biri də tələbələrin nitqinin inkişaf etdirilməsidir. Nitq inkişafı nədir? Tələbə öyrəndiyi dilin qayda-qanunlarını düzgün mənimsəməli, həmin qayda-qanunlardan əməli şəkildə istifadə edə bilməlidir.

Nitqi həm şifahi, həm də yazılı şəkildə inkişaf etdirmək olar. Şifahi nitqlə yazılı nitq arasında əsaslı fərqlər vardır:

1. Şifahi nitq səslərlə, yazılı nitq isə hərflərlə ifadə olunur.

2. Şifahi nitq danışılır və eşidilir, yazılı nitq isə yazılır və oxunur.

3. Şifahi nitqdə cümlələr, əsasən, qısa və quruluşca asan olur. Yazılı nitqdə isə mürəkkəb cümlələrdən daha çox istifadə olunur.

4. Şifahi nitqdə intonasiya, fasilə, vurğu, və bu kimi vasitələrdən istifadə olunur. Yazılı nitqdə isə bunların əvəzində, imkan daxilində, durğu işarələri işlədilir.

5. Şifahi nitq mimika, jest və hərəkətlərlə müşayiət olunur. Yazılı nitqdə isə belə əlavə hərəkətlər işlənmir.

6. Şifahi nitq orfoepiya ilə, yazılı nitq isə orfoqrafiya ilə bağlıdır.

Əcnəbilərə Azərbaycan dilinin tədrisində şifahi nitqiln inkişafına üstünlük verilir. Ona görə də hər bir müəllim çalışmalıdır ki, tələbələrin nitqi gözəl, ifadəli olsun, sözləri yerli - yerində işlətsinlər, tələffüzləri isə anlaşıqlı olsun. Bu cür nitq dinləyiciyə daha çox tə`sir göstərir. Əgər tələffüz düzgün olmazsa, bu zaman anlama prosesində çətinlik yaranar.

"...Şifahi nitqin bir əhəmiyyəti də onun yazılı nitq üçün əsas təşkil etməsindədir (Uşinski). Deməli, şifahi nitq, həmçinin, yazılı nitqə hazırlıqla, onun inkişafı ilə də bağlıdır.

Nitq inkişafı üzərində işi aşağıdakı ardıcıllıqla aparmaq olar: 1.Sözlər (lüğət) üzərində iş. 2. Cümlələr üzərində iş. 3. Rabitəli nitq üzərində iş.[1]

Bunların hər birinə qısaca nəzər salaq:

Lüğət üzərində iş nitq inkişafının əsasını təşkil edir. Bu prosesdə tələbələr yeni sözlər öyrənirlər. Bu sözlər hesabına da onların nitqi inkişaf edir və zənginləşir. Axı tələbələrin lüğət ehtiyatı nə qədər zəngin olarsa, onların nitqi də bir o qədər məzmunlu və canlı olar. Ona görə də tələbələrin lüğətini zənginləşdirmək üçün rəngarəng mövzulardan istifadə edilməlidir.

Lüğət üzrə iş prosesində ayrı-ayrı sözlər öyrədilməklə bərabər, həm də onların ifadə və cümlə daxilində birləşmə qaydaları da öyrədilir. Tələbələr belə dərslərdə Azərbaycan dilinin spesifik səslərinin tələffüzünü öyrənir, canlı danışıq dilinin xüsusiyyətlərini dərk edirlər. Onlarda verilən suallara düzgün cavab vermək vərdişləri yaranır. Məsələn:

-- Bu, nədir?
-- Bu, almadır.

-- Əhməd hara gedir?
-- Əhməd məktəbə gedir.

Lüğət üzrə işlərin aparılmasında çalışmalardan da istifadə olunur.

Şifahi çalışmalar nitqin inkişafı məqsədilə aparılır. Belə çalışmalar tələbələrin danışıq qabiliyyətini inkişaf etdirir, müstəqilliyini artırır. Çalışmaların bir qismində müəyyən sözlər buraxılmaqla cümlələr verilir. Buraxılmış sözlərin yerinə nöqtələr qoyulur. İnkişafetdirici və məntiqi çalışmalardan da istifadə edilir. Bə`zi misallara müraciət edək:

1. Hər bir sözün qarşısında uyğun gələn əşya əlavə edin.

sarı ... hündür...
qırmızı ... acı ...
gözəl... dadlı ...
şirin ... soyuq...

2. Nöqtələrin yerinə sifət artırın.

necə? necə?
..kitab ..çörək
..ev ..su
..alma ..dərman

3. Buraxılmış sözləri artırın.

1. Sizinlə . . . olmağıma şadam. 2. Sənin . . . nədir? 3. Atam mənə . . . aldı. 4. Mənim . . . bacım var.

Sözlər: ayaqqabı, adın, tanış, iki.

4. Düzgün variantı seçin.

| | | | | |
|---|---|---|---|---|
|  | it | kitab | qələm | saat |
|  | karandaş | it | saat | kitab |
|  | kitab | qələm | saat | it |
|  | qələm | it | kitab | karandaş |
|  | it | kitab | saat | qələm |

5. Uyğun gələn sözləri seçin.

Bakı
a) respublikadır.
b) şəhərdir.
s) çaydır.

Xəzər
a) çörəkdir.
b) meyvədir.
s) dənizdir.

Adil
a) balıqdır.
b) adamdır.
s) çantadır.

6. Əşyaların adlarını deyin.



1. ________________



2. ________________



3. ________________



4. ________________



5. ________________



6. ________________

Açar:

açar maşın
avtobus qayçı
eynək saat